**UOT 297**
**https://doi.org/10.59849/2710-0820.2024.1.272**

**Vüsalə Gülmalıyeva**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun*
*"Etika" şöbəsinin elmi işçisi*
*vusalagulmaliyeva86@mail.ru*

# DİALOQ ANLAYIŞININ FƏLSƏFİ DƏRKİNİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *dialoq,konsensus, əməkdaşlıq, harmoniya, sülh*

Dialoq problemi fəlsəfi problem olaraq mövcud nəzəri fikrin ən vacib məsələlərindən biri kimi çıxış etməkdədir. Bu problem bilavasitə insan-dünya, insan-cəmiyyət, insan-dünyagörüşü və s. kimi münasibətlərdən qaynaqlanan bir problemdir. Başqa sözlə desək, dialoq mədəniyyəti hazırda bir növ Yer üzündə yaşayan cəmiyyətin, sivilizasiyanın, dövlətin elə bir problemi kimi çıxış etməkdədir ki, onun metodoloji, fəlsəfi, qnoseoloji və s. kontekstdən izahı bilavasitə zamanın çağırışı kimi müasir fəlsəfənin qarşısındadır. Lakin məqalədə əsas məqsəd dialoqun sosial-fəlsəfi cəhətdən araşdırılmasıdır. Dialoq problemi çox tərəfli olduğundan mahiyyəti olduqca genişdir. İnsan sosial varlıq olaraq dialoqa böyük ehtiyac duyur. Çünki insan şəxsiyyətinin formalaşmasında və eləcə də sosiallaşmasında, sosial münasibətlərin təkmilləşməsində, eləcə də həyat fəaliyyətinin müxtəlif sahələrində dialoq mədəniyyətinin formalaşması xüsusi önəm daşıyır.

Qədim dövrlərdən bəri fəlsəfədə aktual olan dialoq problemi Antik yunan fəlsəfəsində elmi forma almaqla yanaşı, həm də, gündəlik həyat tərzinin bir hissəsinə də çevrilmiş oldu. Məsələn, "dialoq Sokrat üçün də həyat tərzi idi" [4, s.34]. Hələ qədim dönəmlərdə Sokrat (e.ə. 469-e.ə. 399) insanlarla ünsiyyət zamanı dialoqun ən uyğun forma olmasını görə bilmişdir. Sokrat həm də, say etibarı ilə son dərəcə çox, və cəmiyyətləri ideyaca plüralistik olan yunan polisləri arasında balansın qorunması üçün də, dialoqun vacibliyini dərk etmişdir. Bu cəhətdən, "fəlsəfə də həmişə dialoq xarakteri daşıyıb. Dialoq olmadan real fəlsəfə olmayıb və ola da bilməz" [8, s.1149]. Deməli, dialoq qədimlərdən bəri fəlsəfənin də ruhuna xasdır. Bu ənənə günümüzdə də eyni xətt üzrə davam etməkdədir. Bu mənda, müxtəlif elm sahələrində əks olunmasına baxmayaraq, dialoq problemi daha çox fəlsəfədə tədqiq olunur. Bunun əsas səbəblərindən biri hər iki tərəf üçün ortaq olan düşüncə məsələsidir. Belə ki, fəlsəfənin əsasında duran əsas məsələ düşüncədir. Ümumiyyətlə, fəlsəfə düşüncə elmidir. Dialoqun da mahiyyətində duran əsas amil düşüncədir. Düşüncə həm də, dialoqu konstruktiv edən əsas vasitədir. Digər tərəfdən, düşüncə tərəflər arasında neytral balanansın təmin edilməsini də şərtləndirir. Bu mənada müasir dövrdə isə, "dialoq, ortaq düşünmə və düşüncə yolu ilə ümumiortaq məna axtarışında, ümumi olan səyləri inkişaf etdirmə prosesidir" [17,s.196]. "Dialoq dövlətlər arasında diplomatik vasitə, eləcə də cəmiyyətlərdəki zorakılığa son qoymaq rolunda da çıxış edən vasitədir". [17, s.200] Dialoqlar zamanı əldə olunan və bütün tərəflərinin maraqlarını ödəyən ümumi və ortaq mənaların əldə olunması isə, dialoqun uğurluluğuna ən əsas dəlildir. Günümüzdə formalaşan reallıqları da nəzərə aldıqda, fəlsəfi mənada dialoq bütövlükdə bəşəriyyət adına cəmiyyətlərdə uzunmüddətli nizam və dayanıqlı harmoniya vasitəsidir. Cəmiyyətlərdə stabilliyin qorunmasında da ən önəmli vasitələrdən biridir. Dialoq həm də, müasir cəmiyyətlərin birgəmövcudluğu və birgəfəaliyyəti üçün də ən başlıca şərtlərdən biridir. Amerikalı ictimai rəy analitiki Daniel Yankeloviç (1924-2017) hesab edir ki, "dialoq uğurlu münasibətlərin qurulması prosesidir". [21,s.378] Eləcə də, müasir bazar iqtisadiyyatının diqtə etdiyi tələbləri nəzərə aldıqda, bütün cəmiyyətlərin dialoq mühitində mövcudluqlarını sürdürmələri qaçılmaz reallıqdır. Bu mənada, dialoq sivilizasiyalararası nizam və harmoniyanın da əsas elementidir. Çünki, "dialoq yerli sivilizasiyalar arasın-

da qarşılıqlı əlaqələrinin aktiv formasından başqa bir şey deyil" [7, s.13] "Geniş sosial-mədəni kontekstdə götürüldükdə dialoq, mədəniyyətlərin və sivilizasiyaların bir-biri ilə deyəcəkləri və paylaşacaqları bir görüş, söhbət və ya ideoloji mübahisəsidir". [7, s.26]. Əks halda bazar iqtisadiyyatı şəraitində cəmiyyətlərin inkişafı üçün də vacib amillərdən olan nizam və harmoniyanın qorunması mümkün deyil. Müasir dünyada qarşılıqlı sosial, iqtisadi və siyasi bağları nəzərə aldıqda cəmiyyətlər bir-birilə üzvi vəhdətdədirlər. Günümüzdə bir-birilə əlaqəli cəmiyyətlər, sözün yaxşı mənasında həm də, bir-birilərindən aslıdırlar. Bu qaçılmaz müasir reallıq da, sosial fəlsəfi problem olan dialoq problemini bir qədər də aktual edir. Bu mənada, "bugünkü dünya müxtəlif dünyalardan təşkil olunmuşdur ki, bu dünyaların da hər biri müstəqil, bütöv dünyadır və bu səbəbdən də, üstünlük və ağalıq uğrunda zor tətbiqini ləğv etmədən dialoq və kompromis axtarışlarında olmağa məhkumdur". [3,s.63] Fikrimizcə, müstəqil dünyaların bütöv dünyada özlərinə yer etmələri üçün bütün sferalarda konstruktiv dialoqlar zərurətdir. Dialoq probleminin müasir dövrdə sosial fəlsəfənin ən aktual problemlərindən biri olmasını, məhz bu mənada başa düşmək lazımdır. *Dialoq problemlər ilə şərtlənərək törəyən və problemlərdən çıxış üçün uyğun vasitə olan bəşəri bir fenomendir.*

Digər tərəfdən, dialoq müasir cəmiyyətlərin bir növ terapiyasıdır. Münaqişəli məqamları və gərginlikləri sublimasiya etmək üçün səmərəli bir yoldur. Çünki müasir dünyadakı cəmiyyətlərdə sosial mühit elə mərhələyə gəlib çatmışdır ki, "orada istehsal və mübadilə psixikanın korlanmasına, nevrozların artmasına, intellektual enerjinin qeyri-rasioanal sərfinə, şüurun müxtəlif siyasi məqsədlər naminə manipulyasiyasına, zövqlərin korlanması, dünyagörüşdə humanist meyillərin azalması kimi tendensiyalara gətirib çıxarmışdır". [2, s.270] Müasir dünyanın çağırışları, nəinki geniş miqyasda cəmiyyətlərarası, eləcə də, həyatın bütün digər sferalarında da dialoq mədəniyyətini zərurətə çevirir. Bu cəhətdən dialoq günümüzdə həm də, epidemioloji xüsusiyyətlər də qazanmış olur. "Dialoji təfəkkür dini, etnik, mədəni, siyasi və iqtisadi müxtəlifliklərin ortaya çıxartdığı məhdudiyyətləri dəf etməyə, tolerantlığa və harmoniyaya, birgəyaşayışın pozitiv məqamlarına vüsət verməyə qadirdir".[1,s.211 ] Dialoq mədəniyyəti cəmiyyətdaxili və cəmiyyətlərarası tarazlığın təmin olunması üçün vacib olduğundan, "birlik artıq gerçəklik yox, məqsəddir". [6, s.76] Dialoqun formalaşdırdığı birgəlik ideyası müasir cəmiyyətlərin zəncirvari formada funksionallıqları üçün əsas amillərdəndir. Birlik ideyası müasir dünyanın bəşər adına təhlükəli problemlərin həllində də, əsasdır. Bu məqam son günlərdə kütləvi şəkil alan meşə yanğınları (Türkiyə, İtaliya, Yunanıstan, İspaniya), daşqınlar (Liviya) və zəlzələlər (Türkiyə, Mərakeş) zamanı özünü açıq göstərir. Bütün ölkələrdə baş verə biləcək bu fəlakətləri qarşılamaq üçün, dövlətlərin bir-biri ilə yarımlaşması birgəlik məsələsinə yaxşı nümunədir.

İstənilən formalı dialoq daima ilk olaraq daxili fərdi dialoqdan törəyir. Bu mənada, dialoq xüsusidən başlayıb, cəmiyyətə ümumiləşir. Fərdi törəyərək ünsiyyətdə məna qazanır. Bu cəhətdən, dialoq problemi, fəlsəfənin ən əsas problemlərindən bir olan insan problemindən də ayrı deyil. Sülh və münaqişə araşdırmaları üzrə dünyaca məşhur mütəxəssislərdən biri hesab olunan Yohan Qaltunq (1930) hesab edir ki, "insana xas daxili dialoq, insanlar arasındakı dialoq qədər vacibdir". [16,s.191] Bu cəhətdən, müasir dünyada bəşər adına hər bir insanın daxili dialoqu, yəni, öz tənqidi, özü qarşısında məhsuliyyəti və məqsədyönlü fəaliyyəti olduqca böyük məna kəsb etməkdədir. Fəlsəfi mənada, *dialoq fərdlərdən başlayıb cəmiyyətlərə sirayət edən və qlobal miqyaslı bəşəri problemləri həll etməyi hədəfləyən universal və bəşəri olduğu üçün də, əsas bəşəri amil olan kommunikativliyi ilə də səciyyələnən bir fenomendir.*

Dialoq daimi cavablar axtarışıda olan prosesdir. Onun bəşəri qayəsi məhz bundan ibarətdir. Bu mənada dialoq həm də, qarşı tərəfə daimi xitabətdir. Bu axtarış və xitabətdə sualın düzgün qoyuluşu dialoqun uğuruna birbaşa olaraq təsir edən amildir. Y.Qaltunq yazır ki, "dialoq suala əsaslanır". [15,s.166] "Dialoq daima soruşur və axtarır". [15,s.20] Bu mənada, dialoqun fəlsəfi mahiyyəti sual-cavab dixatomiyasına bağlıdır. Bu cəhətdən, dialoq daima verdiyi suallara münasib cavablar axtarmaq əsasında davam edən bir prosesdir. *Dialoq soruşan və axtaran, konsensus isə, bu prosesin sonunda ta-*

*pılan ən uyğun cavablardan biridır*. İstənilən münaqişəni önləmə məqsədi güdən və ya istənilən bir problemin həllinə aid düzgün cavab, daima, öncədən düzgün qoyulan suallardan aslı olaraq hasil olmuş olur. Bu mənada dialoq da, dolğun sualların müzakirəsi və bu qəbildən olan suallara birgə və eləcə də, dialoqa daxil olan tərəfləri maksimum dərəcədə qane edəcək cavabları tapmaq prosedurudur. "Dialoq subyektivliyin subyektivliklə görüşü" [11, s.216] olsa da, bu prosedurun konstruktiv olması son dərəcə vacibdir. "Dialoq bərabərliyi, iştirakçılarının qarşılıqlı hörmətini nəzərdə tutur. Onun məqsədi sadəcə bilikləri artırmaq və ya öz fikirlərini həmsöhbətə təlqin etmək deyil, mövcud, yeni problemlər və ziddiyyətlərin həllinə ümumi yanaşmalar axtarmaqdır. Dialoq konstruktivdir, destruktiv deyil".[10, s.99] Destruktivliyə qarşı konstruktiv vasitə olan dialoq danışıqları, debatları, müzakirələri, problemlərin həllini daha yüksək mərhələyə daşıyan bir fenomendir. Bu cəhətdən H.H.Saunders yazır ki, "debat daryönümlü baxışları gücləndirir, dialoq isə, yeni və daha yaxşı yanaşmalara yollar açır". [21,s.378] Bu mənada, ümumiortaq nəticələrin əldə olunması üçün dialoq daha dolğun və əsaslı bir platformadır. "Monoloq bir nöqteyi-nəzəri vurğulayaraq monosentrikdirsə, dialoq dualistik, ikili xarakter daşıyır. Bir və ya birdən çox digər həmtərəflərin, "səslərini", müxtəlif düşüncələrin və baxışların birgə mövcudluğu, diskursda bərabər iştirakını təmsil edir". [7, s.25] *Dialoq konstruktivlik axtarışında olan dualistik prosesdir*. Diloq istənilən destruktivliyi həll etmək iqtidarında olan yaradıcı proses və monoloqu aradan qaldırmaq iqtidarında olan kommunikativ prosesdir.

Düşünürük ki, dialoqların konstruktiv olması üçün iki əsas məqama diqqət yetirmək önəmlidir:

1. Dialoqların maksimal dərəcədə konstruktiv və uğurlu olmasında ən önəmli faktorlardan biri də dialoq mövzusunun tərəflərin bilavasitə özlərinin maraqlarından törəməsidir. Əks halda surroqat mövzular dialoq prosesinə daxil olduqda dialoqun konstruktiv olma ehtimalı da azalmış olur. Dialoq mövzusunun tərəflərin ilk öncə öz maraqlarını ehtiva etməsi münaqişəli problemlərin həllində də vacibdir. "Münaqişədən çıxmaq üçün müxtəlif subyektlərin iştirakını və anlayışını təşviq edib, münaqişənin transformasiyası naminə öz bilik və təcrübələrindən istifadə edən, onları xaricdən idxal etməyən dialoqlar vacibdir". [13, s. 256] Fikrimizcə, istənilən formatlı dialoqların ilk öncə real əsaslara söykənməsi və kənardan əlavə edilən olmaması zəruridir. Əks halda, kənardan ekstrapolyasiya edilən şərtlər daxilində dialoqların uğurlu tamamlanması və sonda konsensusa yol açması mümkünsüzdür.

2. Dialoqların konstruktiv, uğurlu və münaqişələrin həllində əsas faktor olmaları üçün şərtlərdən biri də, dialoq prosesini münaqişəli problemə düzgün inteqrasiya etməkdir. Yəni dialoq münaqişə müstəvisinə düzgün və daha çox onun mərkəzinə yerləşdirildikdə, onun effektiv olmaq şansı da daha yüksəlmiş olur. H.H.Saunders yazır ki, "dialoq dəstəkləndikdə, davam etdirildikdə, ciddi, diqqətlə hazırlanmış bir proses kimi tətbiq edildikdə və əsasən də, dərin köklü münaqişənin kontekstinə yerləşdirildikdə, o, ziddiyyətli, qeyri-funksional və ya dağıdıcı münasibətləri dəyişdirmək üçün sistemli bir vasitəyə çevrilə bilər". [21,s.376] Yəni, fəlsəfi mənada dialoqun bütün əsas funksiyaları və imkanları düzgün bir şəkildə və sistemli olaraq işə salındıqda, onun nəticələrinin uğurlu olması da, qaçılmazdır. Bu mənada, dialoqun əvvəldən düzgün təşkili və aparılması olduqca önəmlidir. Dialoqun məqsədinin öncədən düzgün təyin edilməsi də, sonda onun uğurluluğuna təsir edən əsas faktordur.

**Dialoq, kommunikasiya və konstruktiv əməkdaşlıq.** Artıq qeyd olunduğu kimi sosial hadisə olan dialoq, düzgün tərtib olunmuş suallar və onlara konstruktiv cavablar dixotomiyası əsasında baş verən qarşılıqlı eşitmə-dinləmə prosesdir. Bu mənada, uğurlu dialoqun əsas şərtlərindən biri də, dialoqlar zamanı düzgün ünsiyyətin qurulmasıdır. Dialoqun mahiyyətini bilavasitə uğurlu ünsiyyət təyin etdiyi kimi, bu faktor həm də, onun konstruktiv nəticəsini də formalaşdırmaqda əsas amildir. Bu cəhətdən, "ümumi anlaşma nöqtələrini əhatə etməyə çalışan dialoq dinləmə, əks etdirmə və müzakirə formatında gerçəkləşir". [17,s.201] Bu məqamlar isə, dialoqların davamlı olmasını qaçılmaz edir. Yəni dialoqu formalaşdıran əsas şərtlər, dinləmə, qarşılıqlı refleksiya və müzakirə, dialoq prosesinə bir davamlılıq qazandırmış olur.

Dialoq bu formada inkişaf edərək davamlı prosesə çevrilmiş olur. "Hər bir dialoqa ilk dialoq kimi yanaşmaq vacibdir... Dialoq iştirakçıları hər dəfə "yenidən başlamağa", yeni prosesə girməyə hazır olmalıdırlar". [13, s.257] Hətta kifayət qədər uğurlu gedən dialoqlara, dialoqların növbəti mərhələsində mənfi təsir göstərmək iqtidarında olan kənar amillər təsir edə bilir. Bu da, dialoq iştirakçılarını yeni çağırışlar qarşısında qoyur. Dilaoq prosesində iradə və əzm nümayiş etdirmək, dəyişən şərtlərə qarşı çeviklik nümayiş etdirmək son dərəcə önəmlidir. Davamlı dialoq modelinin tərəfdarı və eləcə də, ABŞ-da Davamlı Dialoq İnstitutunu təsisçisi olmuş Harold Henry Saunders (1930-2016) hesab edir ki, "dialoq münasibətlərin mahiyyətini təşkil edən xüsusi ünsiyyət üsuludur. Danışıqlar, vasitəçilik, debat, hüquqi mübahisələr, diplomatik mübadilə, qiraət və ya adi söhbətdən fərqli olaraq, daha geniş tətbiq olunan, təlqinedici danışma və dinləmə üsuludur. Dialoq, bilavasitə olmasa da, əksər münaqişələrin həlli vasitələri üçün də vacib şərtdir". [21,s.376] Dialoq sadəcə ünsiyyət yox, ünsiyyət zamanı digər kompleks amilləri də nəzərə alaraq özündə birləşdirən *xüsusi ünsiyyət* vasitəsidir. Mahiyyəti etibarı ilə ünsiyyətin digər növlərindən daha genişdir. Dolğun izah, dəqiq təqdimat, bəlağət, eşitmə, dinləmə və digər kompleks amillər də dialoqlarda əks olunmaqdadır. Bu kimi amillər dialoqların nəticəsinə müsbət təsir göstərməkdədir. Bu mənada, dialoq digər ünsiyyət növlərindən fərqli olaraq daha düşünülmüş və dərin əsaslara sahibdir. Eləcə də, dialoqların mahiyyətində konkret fikir amili, problemlərə daha dəqiq və dərindən yönəlmə də, qabarıq şəkildə əks olunmaqdadır. Əksər hallarda, münaqişələrin həlli üçün kompleks ünsiyyət amillərinin vacibliyi əsas şərtlərdən olduğundan, dialoq həm də, münaqişələrin həllində ümumiləşdirici bir aktor kimi də çıxış edir. Bu cəhətdən, dialoq günümüzdə də, münaqişələrin həlli üçün ən effektiv vasitələrdən biri olaraq qalmadadır. "Həqiqi dialoq empatik (*tərəflərin bir-birini qarşılıqlı anlamaq mənasında-G.V.*) kommunikasiya tələb edir, həqiqi dialoq digərinə qayğı göstərməkdən daha çox vahid, əhatəli bir "sistem" naminə qayğı göstərmək və sabit düşüncə xətləri boyunca irəli-geri qaçmaq əvəzinə, yeni bir ümumi görüş sistemi əldə etmək istəyidir". [14,s.220] Dialoq fərdə - təkə yox, fərdlərdən - cəmə yönələn proqresiv və davamlı bir prosesdir. Bu proses, dialoqdakı tərəflərin bir-birilərinə qarşı istək və rəğbət formalaşdırmasından daha çox, ümumi mənafe naminə, rasional güzəştlər və ədalətli kompromislər tələb edən prosesdir. Fəlsəfi mənada problemə yanaşsaq, *dialoq praqmatik olduqda daha pozitiv nəticələr vermək iqtidarında olan fenomendir*. Əksinə, dialoq daha çox pozitiv olan hisslər üzərində qurularaq, göstərişli şəkildə davam etdikdə və bu konteksdə praqmatik məqamlar diqqətdən kənarda qaldıqda, dialoqun yekun nəticəsi də uğurlu sayılmamalıdır. Bir sözlə, dialoq soyuqqanlılıq tələb edən və praqmatik əsaslar üzərində qurulmalı olan bir prosesdir. Bu prosesdə hisslər və emosiyalara yer vermək doğru deyil. Dialoqlarda düzgün və sistemli kommunikasiyanın rolu bu cəhətdən həlledicidir. Kommunikasiya dialoqu konstruktiv edən ən əsas amildir. Kommunikasiya həm də mədəniyyətin dialoqunda da əsas faktorlarından biridir. Hər hansı bir mədəniyyət də digər mədəniyyətlər ilə ünsiyyətə daxil olmadan öz daxilində qaldıqca, inkişafdan məhrum olur. Tarixdə mədəniyyətlərin geriləməsi və süqutunun əsas şərtlərindən biri məhz budur. Mədəniyyətin də mahiyyətində əks olunan, əlaqə, ünsiyyət, qarşılıqlı təsir, sinkretika, eklektika və digər bu kimi elementlər əsasdır. "Tam olaraq özünü təkcə öz mədəniyyəti ilə eyniləşdirən insan bütün digər mədəniyyətlərə kor olur, yəni bir mədəniyyətin insanı, mənəvi yüksəlişdən məhrum olmağa məhkumdur. Ona görə də, kommunikasiya inkişaf etmiş açıq və yaradıcı mədəniyyətin ən əsas əlamətidir. Vahid mədəniyyət özünü dərk edə bilməz, başqa, fərqli mədəniyyətlərlə əlaqəsi olmadan öz kimliyini qura bilməz". [20,s.19]

Digər tərəfdən, mədəniyyətlər arası əlaqələr və eləcə də, tədqiqat mövzumuz kimi dialoqlarda əsas sistemyaradıcı element olan kommunikasiya probleminə tənqidi də yanaşmaq lazımdır. Çünki günümüzdə davam edən, eləcə də, keçmiş tarixi proseslər göstərir ki, bəzən düzgün kommunikasiya qurulduqda belə, tərəflər arasında dialoqlar uğursuz ola bilir. Belə ki, "kommunikasiya münaqişəni həll edən panaseya (*bütün xəstəliklərin dərmanı-G.V.*) demək deyil. Münaqişənin həlli üçün səmimi istək olmadıqda, kommunikasiya həm tərəflərin fikir

ayrılıqlarını artıra, həm də onları yumşalda bilər”. [17,s.155] Məsələn, 44 günlük vətən müharibəsindən sonra Ermənistanın Azərbaycana qarşı beynəlxalq hüququn normaları çərçivələrinə zidd olaraq və Ermənistanın kapitulyasiyasına rəğmən hələ də qeyri-səmimi duruş nümayiş etdirməsi buna misaldır. Hüquqi müstəvidə davam edən dialoq və kommunikasiyalara baxmayaraq, bu qeyri-səmimi yanaşma, hələ də, Ermənistan cəmiyyətində böyük ölçüdə alqışlanmaqdadır. Deməli, kommunikasiya və dialoqlarda cəmiyyətlərin məsələyə rasional münasibətləri də əsas şərtlərdəndir. Bu cəhətdən, müasir dünyada ölkələr arasında diplomatik əlaqələrin qurulması üçün təmaslar, danışıqlar və konstruktiv dialoqlar son dərəcə önəmlidir. Konstruktiv dialoqlarsız hansısa münasibətlərin qurulması, münaqişəli məsələlərin aradan qaldırılması, tərəfdaşlıqların artırılması, bəyanatların imzalanması mümkünsüzdür. Eləcə də, münaqişə vəziyyətində olan tərəflər arasında da, dialoq və digər bu yönümlü təmaslar dərinləşdikcə, onların konsensusa yaxınlaşma prosesi də, bir o qədər sürətlənmiş olur. Bu mənada, “münaqişə edən tərəflər arasında dialoq inkişaf edərək dərinləşdikcə, opponentlər aralarındakı münasibətlərin şərtləri müəyyənləşdirilə və yenidən təyin edilə bilər”. [17,s.142]

Müasir dünyada olduqca vacib sosial fenomen olan dialoqun gerçəkləşməsi üçün, onun ilkin bazisinin düzgün formalaşdırılması da vacib şərtlərdəndir. Bu bazisin əsaslılığı ilə dialoqların uğurluluğu düz mütənasibdir. Əvvəldə qeyd etdiyimiz kimi istənilən sferalarda gerçəkləşən dialoqlar üçün, ilkin dialoq platformaları olan, dialoqa hazır olma, konstruktiv danışıqlar, qarşı tərəfə düzgün suallar ünvanlandırma, qarşılıqlı ünsiyyət və digər bu kimi amillər əsasdır. Dialoqun uğurlu nəticəsi məhz bu amillər əsasında formalaşır. Eləcə də, dialoqların bazisini formalaşdıran, bu amillər, dialoqların sonrakı mərhələsini təşkil edən əməkdaşlıq, tərfdaşlıq, iqtisadi, siyasi əlaqələrin qurulması və bu kimi digər amillərin də konstruktivliyini şərtləndirmiş olur. Dialoqlar əsas hədəflərinə bu şərtlər əsasında çatmış olur. Bu cəhətdən, “dialoq əsasında sivilizasiyaların qarşılıqlı əlaqəsinin ən yüksək forması, qlobal problemlərin həllində tərəfdaşlıq əlaqələrinin qurulmasıdır”. [10,s.103] Ümumilikdə “əməkdaşlıq, tərəfdaşlıq dialoqun yüksək pilləsi, onun inkişafının daha mükəmməl səviyyəsi deməkdir”. [5,s.41] “Tərəfdaşlıq sivilizasiyaların daha dərin qarşılıqlı anlaşma və etimad dərəcəsini, qarşılıqlı əlaqələrin geniş sahəsinin sabitliyini, potensialların birləşdirilməsini, qlobal problemin həlli üçün zəruri olan ümumi qurumların yaradılmasını nəzərdə tutur”. [9,s.162] Müasir dünyada cəmiyyətlərin həmahəng mövcudluğu, qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıqları üçün dialoqlarla yanaşı, bu dialoqların ilkin bazisinin düzgün qurulması da bir o qədər önəmlidir. Dialoqun nəticəsi dialoqa hazırlıqdan böyük ölçüdə aslıdır. Bu mənada konstruktiv dialoq, dialoqa qədərki mərhələlərin düzgün təşkili ilə, dialoqdan sonrakı mərhələ olan əməkdaşlığın da üzvi sintezindən aslıdır. Konstruktivlik bir proses olaraq dialoqların baş tutması və səmərəliliyini təyin edən ən əsas faktordur.

**Dialoqlarda yumuşaq güc faktoru və vasitəçi aktor**. Günümüzdə dünyada baş verən çoxşaxəli prosesləri nəzərə aldıqda bəzi anlayışların məna dəyişikliyi və ya əvvəlki mənasından daha geniş məna qazandığının da şahidi oluruq. XXI əsrin reallıqlarını nəzərə aldıqda, mənaca dialoq məntiqinin vacib bir elementinə çevrilmiş yumuşaq güc anlayışı da bu qəbildəndir. Digər tərəfdən, qurulan konstruktiv dialoqların məntiqi nəticəsi olan əməkdaşlıq da əbədi proses deyil. Bu prosesdə də, daimi reqreslərin müşahidə oluması mümkündür. Müasir dünyanın dinamik dəyişən vektorunu nəzərə aldıqda dialoqların uzunmüddətli olaraq dayanıqlı qalmaları da son dərəcə qəliz məsələdir. “Dialoq ümumi problemlərin həllində əməkdaşlığın konkret sahələrinin, formalarının, mexanizmlərinin inkişafı üçün ilkin şərtlər yaradır. Lakin bu cür əməkdaşlıq çox vaxt qısamüddətli də olur o, öz formalarını dəyişə və ya vəziyyət dəyişdikdə, eləcə də ziddiyyətlər kəskinləşdikdə sonlana bilər”. [12,s.45] Məlumdur ki, dialoqlar nəticəsində əldə olunan əsas naliyyətlər siyasi, iqtisadi, hərbi kataklizmlərin fonunda öz ilkin mahiyyətini itirə bilər. Günümüzdə iqtisadiyyat və siyasətin bütün dünya hadisələrinə son dərəcə dinamik yön verən güclər olduqlarını nəzərə aldıqda, dialoq konlfikli vəziyyətlərdən tam olaraq çıxış da deyil. Bu cəhətdən, müxtəlif sahələrdə əqdə olunan dialoqların nəticələrində reqreslərin baş verməməsi üçün, *müasir anlam-*

*da başa düşülən güc faktorlarının həlledici rolları* da önəmlidir. Müasir güc faktorları birbaşa konfrontasiyadan daha çox, bir növ nizamlayıcı funksiyaları yerinə yetirirlər. Müasir dünyanın güc faktorları arasında isə, yumuşaq vasitələr, ənənəvi sərt vasitələrdən daha çoxdur. Belə güc faktorlarına misal olaraq iqtisadi təzyiqlər, diplomatik xəbərdarlıqlar, sanksiyalar və digərlərini misal göstərmək olar. Bu mənada, "qlobal münaqişə və əməkdaşlığın öyrənilməsində, digər əsas anlayışlardan biri də gücdür. Bununla belə, güc faktorunu da sevgi kimi, müəyyən etmək və ya ölçməkdənsə, yaşamaq daha asandır". [19,s.46] Belə ki, müasir dünyada əksər hallarda mahiyyəti dialoq olan əməkdaşlığın özü də güc faktoru ilə ölçülür. Müasir dünyada dialoqların uğuruna bu amil də bilavasitə təsir edir. Daha zəngin və güclü ölklər ilə əməkdaşlıqda maraqlı olmaq da, eyni dərəcədə tarixin sınaqlarından çıxmış və dəfələrlə təsdiq olunmuş əsaslı arqumentdir. Bu cəhətdən, müasir dünyanın şərtləri daxilində dialoqlar həm də, bir növ balansın qorunması yollarıdır.

Müasir dünyada konstruktiv və davamlı dialoqlarda yumuşaq güc faktoru ilə yanaşı, eynən onun kimi balans rolunda çıxış etmək iqtidarında olan digər faktorlar da mövcuddur. Belə əsas faktorlardan biri də vasitəçilikdir. "Vasitəçi aktorun rolu, tərəflərarası dialoqu asanlaşdırmaq, münaqişə tərəfləri arasında bağ qurmaq və onları tədricən hansısa həll yoluna çatdırmaq üçün vasitəçi qismində xidmət etməkdən ibarətdir". [13,s.235] Ümumiyyətlə, qeyd olunmalıdır ki, dialoqların konstruktiv olmasını şərtləndirən ən əsas məqam neytrallıqdır. Çünki obyektivlik məhz bu formatda keçirilən dialoqlarda təmin oluna bilir. Amma müasir dünyanın çoxqütblülüyünü nəzərə aldıqda neytrallıq faktoru çox zaman obyektiv şəkildə təmin oluna bilmir. Məhz vasitəçilik bu neytrallığın təmin olunmasını şərtləndirə bilən aktora çevrilə bilir. Bu mənada, neyrtalığın təmin olunması üçün, bəzər ikitərəfli dialoqlarda üçüncü bir tərəfin iştirakı da vacib olur. Müasir dünyada dialoqlar sayəsində konsensusun təşviqi üçün, dialoqların özləri zəruri olduqları qədər, münaqişə edən tərəflər arasında vasitəçi aktorların da rolu bir o qədər əhəmiyyətlidir.

**Nəticə**

Bütün deyilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, müasir dövrdə insanın sosial, ictimai-siyasi həyatında baş verən münaqişələrin, ziddiyyətlərin, böhran vəziyyətlərin həll olunmasında dialoq prosesinin rolu mühümdür. Dialoqun ayrılıqda müstəqil fəlsəfi bir problem kimi öyrənilməsi və cəmiyyətdə dialoq mədəniyyətinin formalaşdırılması da vacib amillər sırasındadır. Çünki dialoq insanın qarşılıqlı anlaşma mədəniyyətinin və humanizm dəyərlərinin formalaşmasında və s. bu kimi bir sıra fəlsəfi dünyagörüşü məsələləri ilə bağlı olduğundan onun sosial-fəlsəfi dərki aktuallaşır.

Dialoq danışıq imkanlarının bitdiyi və böhran həddə çatdığı sistemlərdə vacib bir instrumentdir. Müasir dünyanın qarşılaşdığı kəskin təzadlar, hazırda həyatda baş verən bütün hadisələr və insan şüurundakı müxtəliflik amili dialoqun köməyi ilə normal vəziyyətə gətirilə bilər. Qarşılıqlı münasibətləri təmin etmək, sivilizasiyaların, dinlərin, mədəniyyətlərin, siyasi sistemlərin birgəfəaliyyəti, birgəmövcudluğu, dinc, tolerant şəkildə yaşamağa nail olmaq dialoqun uğurla həyata keçirilməsi ilə bağlıdır. Dialoq etnik, sosial, mədəni müxtəliflikdən törəyə biləcək problemləri sabitləşdirə və eləcə də cəmiyyətin stabilliyinin təmin olunması imkanlarını yarada bilir.

Dialoq prosesi iki tərəfin cəlb olunduğu müzakirə prosesidir, lakin mahiyyət budur ki, dialoq prosesi problemli tərəflərin müzakirə formatında çıxış yolu axtarmasıdır. Bu müzakirə formatının uğuru isə sistemli şəkildə yanaşılaraq düzgün və konstruktiv ünsiyyətin qurulması, qarşılıqlı müzakirədə dinləmə, qarşılıqlı refleksiya, maraqların müzakirə mərkəzinə gətirilməsi, iradə, əzm, dəyişən şərtlərə çeviklik nümayiş etdirməkdən asılıdır. Bütün bu amillər əməkdaşlığın, tərəfdaşlığın yaranmasına səbəb olur. Dialoq əməkdaşlığın inkişafı üçün başlanğıc nöqtəsi və onun ən yüksək forması - ümumi qlobal problemlərin həllində sivilizasiyaların qarşılıqlı tərəfdaşlığıdır. Digər tərəfdən müasir dünyada konstruktiv dialoqların həyata keçirilməsində yumşaq güc, vasitəçilik kimi digər faktorların da rolu mühümdür.

## Ədəbiyyat

1. Abbasov Əbülhəsən, Geosiyasi və sosial fəlsəfə: ədalətli nizam və tərəqqi naminə, Bakı, “Zərdabi LTD” MMC, 2017.284 səh.
2. İsmayılov Fərman. Bəşəri problemlər, Turan evi, Bakı, 2010, 390 səh.
3. Məmmədzadə İlham, Bir daha fəlsəfə haqqında, Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Tamamlanmış və yenidən işlənmiş ikinci nəşri., Bakı, Elm və təhsil, 2019, 200 səh.
4. Zeynalov Şölət, Dialoq fəlsəfəsi, Bakı, Avropa nəşriyyatı, 2017, 304 səh.
5. Zeynalov Şölət, Sivilizasiyalararası münasibətlər: problemlər və perspektivlər. Bakı: Oğuz Eli nəşriyyatı, 2014, 240 s.
6. Zeynalov Şölət, Dialoq mədəniyyəti və müasirlik, Bakı, Avropa nəşriyyatı, 2020, 330 səh.
7. Диалог цивилизаций. Повестка дня. – Москва: ИФ РАН, – 2005. – 145 с.
8. Долгов, К.М. Личность в диалоге культур // Философия в диалоге культур: Материалы Всемирного дня философии. – Москва: Прогресс-Традиция, – 2010. – с.1147-1154
9. Кузык, Б.Н., Яковец, Ю.В. Цивилизации: теория, история, диалог, будущее // T.I: Теория и история цивилизаций. – Москва: Институт экономических стратегий, – 2006. – 768 с.
10. Кузык, Б.Н., Яковец, Ю.В. Цивилизации: теория, история, диалог, будущее // T.V: Цивилизации: прошлое и будущее. – Москва: Институт экономических стратегий, – 2008. – 576 с.
11. Рзаева, Роида. Постмодерн и мультикультурализм: Междисциплинарный дискурс. – Баку, «Елм ве тахсил». – 2015. – 300 с.
12. Яковец, Ю.В., Фарах С. Диалог и партнерство цивилизаций. – Москва: Международный институт Питирима Сорокина – Николая Кондратьева, Институт экономических стратегий, – 2014, 434 с.
13. Brand-Jacobsen, Kai Frithjof, with Jacobsen, Carl G. Beyond mediation: towards more holistic approaches to peacebuilding and peace actor empowerment // Searching for peace the road to transcend. By Johan Galtung and Carl G. Jacobsen. – London: Pluto Press. – 2000, – pp. 231-267
14. Galtung, Johan and Tschudi, Finn. Crafting peace: On the psychology of the transcend approach // Searching for peace the road to transcend. By Johan Galtung and Carl G. Jacobsen. – London: Pluto Press. – 2000, – pp. 206-227
15. Galtung, Johan. Transcend and Transform: An introduction to conflict work. – London: Pluto Press. – 2004, – 197 p.
16. Galtung, Johan. Peace by peaceful means: Peace and conflict, development and civilization. – Oslo: International Peace Research Institute. – 1996, – 289 p.
17. Jeong, Ho-Won. Conflict Management and Resolution. An introduction. – New York: Routledge, – 2010. – 256 p.
18. Krauss, Robert M., Morsella Ezequiel. Communication and Conflict // The handbook of conflict resolution: Theory and practice. Editors Morton Deutsch, Peter T.Coleman, Eric C.Marcus. Second Edition. – San Francisco: Jossey-Bass. – 2006, – pp. 144-157.
19. Nye, Joseph S. Jr., Welch, David A. // Understanding global conflict and cooperation: An introduction to theory and history. – Boston: Pearson. – 2017, – 449 p.
20. Saunders, Harold H. Dialogue as a process for transforming relationships // The SAGE handbook of conflict resolution. Edited by Jacob Bercovitch, Victor Kremenyuk, and I.William Zartman. – London: SAGE Publications Ltd. – 2009, – pp.376-391
21. Susnjic, Duro. The meaning and significance of dialogue // Religious dialogue in the Balkans: The drama of understanding. Edited by Milan Vukomanović and Marinko Vučinić. Belgrade: Belgrade Open School, - 2005 pp.11-19

## Summary

### Vusala Gulmaliyeva

### Characteristics of philosophical understanding of dialogue

The article is devoted to dialogue, which is one of the most urgent problems of the modern era. It was emphasized that the role of dialogues as a method of solving problems arising as a result of fundamental changes occurring in the background of globalization in the modern world is irreplaceable, and that it is one of the most important factors in the reformation of the world. It has been considered that dialogue has the power to resolve contradictions and conflicts arising as a result of religious, ethnic, cultural, political and economic diversity. In this process, it was reported that it is possible to achieve positive changes, harmony, stability and order in the direction of spiritual enrichment of human society. Because the successful path to dialogue begins with communication, communication and the resulting cooperation, the said factors were analyzed separately. Therefore, dialogue has been generally researched as a kind of progressive and creative communication that takes place on the basis of a healthy critique of the problems of interstate or specific societies. The article provides general information on communication, communication as a fundamental philosophical and sociological concept in the form of dialogue between people and the world, if not more specifically, between people and generations. Its task is to achieve mutual understanding, mutual enrichment, transformation and refinement of one by another, and the proper organization of communication has been analyzed as the main factor leading to the success of dialogues.


***Keywords:*** *dialogue, consensus, cooperation, harmony, peace*


## Резюме

### Вусал а Гюльмалиева

### Особенности философского понимания диалога

Статья посвящена диалогу, который является одной из наиболее актуальных проблем современности. Подчеркивалось, что роль диалогов как метода решения проблем, возникающих в результате фундаментальных изменений, происходящих на фоне глобализации в современном мире, незаменима и является одним из важнейших факторов реформирования мира. Считалось, что диалог способен разрешить противоречия и конфликты, возникающие в результате религиозного, этнического, культурного, политического и экономического разнообразия. В этом процессе сообщалось, что можно добиться позитивных изменений, гармонии, стабильности и порядка в направлении духовного обогащения человеческого общества. Поскольку успешный путь к диалогу начинается с общения, общения и последующего сотрудничества, указанные факторы были проанализированы отдельно. Таким образом, диалог обычно исследовался как вид прогрессивного и творческого общения, которое происходит на основе здоровой критики проблем межгосударственных или конкретных обществ. В статье даются общие сведения о коммуникации, коммуникации как фундаментальной философско-социологической концепции в форме диалога между людьми и миром, если не конкретнее, между людьми и поколениями. Его задачей является достижение взаимопонимания, взаимообогащения, трансформации и уточнения друг друга, а правильная организация общения анализируется как главный фактор, ведущий к успеху диалогов.


***Ключевые слова:*** *диалог, консенсус, сотрудничество, гармония, мир.*